UOT: 618.2(07)+618.1(07)

Zahılıq dövrü iltihabi ağırlaşmaları olan qadınlarda psixoloji-emosional vəziyyətin dəyərləndirilməsinin müasir üsulları

F.R.Hacıyeva
Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu, Bakı

Xülasə: Tədqiqatın məqsədi Zahılıq dövrü iltihabi ağırlaşmaları olan qadınlarda psixoloji-emosional vəziyətin dəyələndirilməsindən ibarət olmuşdur. tədqiqat işi zamanı qarşıya qoyulan məqsədlərin həlli üçün ümumilikdə, fizioloji və abdominal doğuş keçirmiş 500-ə yaxın qadının arasından tədqiqatımızın daxil etmə və çıxarılma meyarlarına əsaslanaraq 17-45 yaş aralığında olan 250 nəfər zahı qadın tədqiqata daxil edilmişdir. Zahılıq dövrü fizioloji şərtlər çərçivəsində keçən 50 nəfər ümumilikdə 300 nəfər qadın tədqiqata cəlb edilmişdir. Doğuş prosesindən sonra iltihabi ağırlaşmaya mıəruz qalan zahı qadınlardan ibarət əsas qrupdakı pasiyentlər arasında Tutma və Depressiya Hallarının Hospital Şkalası (HADs) üzrə apardığımız sorğu nəticəsində 43% pasiyentlərə həyəcan vəziyyətinin subkliniki formasının olduğu müəyyən edilmişdir. Tədqiqatın qruplar üzrə SF-36 həyat keyfiyyəti sorğusunun psixi komponentinin "sosial funksionallıq" (SF) meyarı ilə göstəricilərin müəyyən edildiyi mərhələsində doğuş prosesindən sonra zahılıq dövründə iltihabi ağırlaşma keçirən əsasn qrupdakı pasiyentlərin müvafiq göstəriciləri ortalama 72,4±0,93 hesablandığı halda, doğuşdan sonra heç bir ağırlaşmasız sağlam zahılıq dövrü keçirən nəzarət qrupundakı pasiyentlərdə bu göstərici bir qədər yüksək, 82,3±1,56 müəyyən edilmişdir. Tədqiqat nəticəsində Hamilton şkalasının həyəcan narahatlığı (HAM-A) komponenti üzrə keçirdiyimiz sorğudan aldığımız nəticələrə əsaslanaraq, əsas qrupda cəmləşdirdiyimiz doğuşdan sonra iltihabi ağırlaşmaya məruz qalmış pasiyentlər arasında həyəcan narahatlığı olmayan tədqiqat obyektinə rast gəlinməsə də, nəzarət qrupunu təşkil edən zahılıq dövründə iltihabi ağırlaşma nümayiş etdirməyən pasiyentlərin 14,0±4,91%-ində həyəcan narahatlığı qeydə alınmamışdır.

Açar sözlər: zahı qadınlar, iltihabi ağırlaşmalar, həyat keyfiyyəti, anket sorğusu, Hamilton şkalası, SF-36

Doğuşdan sonrakı dövr orqanizmin immun sisteminin zəifləməsi səbəbindən infeksion xəstəliklərin yaranması üçün riskinin artması dövrüdür. Həmçinin psixoloji pozğunluqların baş verməsi və ya kəskinləşməsi riskinin artması dövrüdür. Tibb işçiləri skrininq metodlarından istifadə etməklə, prenatal və postnatal müayinələr zamanı qadınları mütəmadi olaraq qiymətləndirməlidirlər. Onlar qadının psixo-emosional vəziyyətinə təsir edən mənfi psixoloji amilləri erkən aşkarlamaqla bu amillərin gələcəkdə qadının və uşağın sağlamlığına mənfi təsir riskini tamamilə aradan qaldırıla bilər [61].

Tədqiqat 2017-2019-cu illər ərzində Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunda təbii yolla doğuşu həyata keçirilmiş, zahılıq dövründə müxtəlif səbəblərdən iltihabi ağırlaşma baş vermiş və zahılıq dövrü fizioloji şərtlər çərçivəsində keçmiş qadınların müayinələrinin və klinik müşahidələrinin nəticələrinin təhlilinə əsaslanaraq aparılmışdır. Belə ki, tədqiqat işi zamanı qarşıya qoyulan məqsədlərin həlli üçün ümumilikdə, fizioloji və abdominal doğuş keçirmiş 500-ə yaxın qadının arasından tədqiqatımızın daxil etmə və çıxarılma meyarlarına əsaslanaraq 17-45 yaş aralığında olan 250 nəfər zahı qadın tədqiqata daxil edilmişdir. Zahılıq dövrü fizioloji şərtlər çərçivəsində keçən 50 nəfər ümumilikdə 300 nəfər qadın tədqiqata cəlb edilmişdir.

Abdominal doğuş keçirmiş 33 qadına təxirəsalınmaz Qeysəriyyə kəsiyi, 23 qadına planlı Qeysəriyyə kəsiyi əməliyyatı aparılmışdır.

Nəticələr və onların müzakirəsi. Hamilton şkalasının həyəcan narahatlığı (HAM-A) komponenti üzrə keçirdiyimiz sorğu nəticəsində doğuşdan sonra zahılıq dövründə iltihabi ağırlaşma keçirən əsas qrupdakı pasiyentlər arasında müvafiq komponentin ortalama göstəricisi 21,6±0,51 bal müəyyən edilmişdir ki, bu zaman pasiyentlər arasında onun minimal göstəricisi 10 bal, maksimal göstəricisi isə 32 bal təşkil etmişdir. Buna baxmayaraq, doğuşdan sonra iltihabi ağırlaşma keçirməyən pasiyentlərdən ibarət nəzarət qrupunda həyata keçirdiyimiz anoloji sorğu nəticəsində qrup üzrə ortalama göstərici əsas qrupla müqayisədə bir qədər aşağı, 15,3±0,79 bal qeydə alınmışdır. Nəzarət qrupundakı tədqiqat obyektləri arasında Hamilton şkalasının həyəcan narahatlığı (HAM-A) komponentinin maksimal göstəricisi 27 bal, minimal göstəricisi isə 5 bal hesablanmışdır. Hamilton şkalasının həyəcan narahatlığı (HAM-A) komponentinin qruplar üzrə əldə etdiyimiz göstəricilər arasındakı statistiki göstəricilər $p<0,0001$ və $t=6,99$ müəyyən edilmişdir.

Cədvəl
Hamilton şkalasının həyəcan narahatlığı (HAM-A) və depressiya (HAM-D) komponentləri üzrə keçirilən sorğunun nəticələri

Hamilton şkalasının həyəcan narahatlığı göstəriciləri	Əsas qrup, (n=100)	Nəzarət qrupu, (n=50)	Statistik göstəricilər
Həyəcan narahatlığı (HAM-A) komponenti (ümumi ortalama balla)	21,6±0,51 (1-32)	15,3±0,79 (5-27)	<0,0001 (t=6,99)
Həyəcan narahatlığının olmaması, %	-	14,0±4,91	χ^2=44,19 <0,0001
Yüngül dərəcəli həyəcan narahatlığı, %	7,0±2,55	26,0±6,20	
Mötədil həyəcan narahatlığı, %	37,0±4,83	52,0±7,07	
Simptomatik həyəcan narahatlığı, %	48,0±5,00	8,0±3,84	
Həyəcan narahatlığının tam təzahürü, %	8,0±2,71	-	
Depressiya (HAM-D) komponenti (ümumi balla)	15,9±0,35 (9-в22)	12,6±0,55 (5 – 20)	<0,0001 (t=5,20)
Depressiya halının olmaması, %	-	12,0±4,60	χ^2=26,98 <0,0001
Yüngül dərəcəli depressiya, %	24,0±4,27	46,0±7,05	
Orta dərəcəli depressiya, %	45,0±4,97	36,0±6,79	
Ağır dərəcəli depressiya, %	31,0±4,62	6,0±3,36	
Çox ağır dərəcəli depressiya, %	-	-	

Qeyd: *- $p<0,05$ (Styudentin t kriteriyası)

Müvafiq şkalanın həyəcan narahatlığı komponenti (HAM-A) üzrə qruplar üzrə həyata keçirdiyimiz sorğu nəticəsində əsas qrupdakı iltihabi ağırlaşma ilə müşayiət edilən zahı qadınların (n=100) 7,0±2,55%-də yüngül dərəcəli həyəcan narahatlığı vəziyyətinin olduğunu müəyyənləşdirmişik. Buna baxmayaraq, doğuşdan sonra iltihabi ağırlaşma nümayiş etdirməyən zahı qadınlardan ibarət nəzarət qrupu üzrə HAM-A komponenti üzrə sorğu zamanı yüngül həyəcan narahatlığı vəziyyətində olan pasiyentlər qrupun 26,0±6,20%-ni əhatə etmişdir.

Tədqiqat nəticəsində Hamilton şkalasının həyəcan narahatlığı (HAM-A) komponenti üzrə həyata keçirdiyimiz sorğu prosesi zamanı 100 nəfər iltihabi ağırlaşma nümayiş etdirən zahı qadınların 37,0±4,83%-nin mötədil həyəcan narahatlıq vəziyyətində olduğu qeydə alınsa da, nəzarət

qrupundakı sağlam zahılıq dövrü keçirən pasiyentlər arasında bu göstərici daha yüksək olaraq 52,0±7,07% təşkil etmişdir.

Tədqiqat zamanı uyğun şkalanın HAM-A komponenti üzrə sorğunun nəticələrinin təhlili zamanı əsas qrupdakı tədqiqat obyetklərinin 48,0±5,00%-də simptomatik həyəcan vəziyyətinin olduğu qeydə alındığı halda, nəzarət qrupunda bu göstərici tədqiqat obyetklərinin yalnızca 8,0±3,84%-ni əhatə etmişdir. Hamilton şkalasının həyəcan narahatlığı (HAM-A) komponenti üzrə həyata keçirdiyimiz sorğu prosesi zamanı doğuşdan sonra iltihabi ağırlaşma nümayiş etdirməyən pasiyentlərdən ibarət nəzarət qrupunda həyəcan narahatlığının tam təzahürü halı qeydə alınmasa da, doğuşdan sonra iltihabi ağırlaşma keçirən əsas qrupdakı pasiyentlərdən 8,0±2,71%-də həyəcan narahatlığının tam təzahürü əsaslandırılmışdır. Şkalanın həyəcan narahatlığı (HAM-A) komponentinin pasiyent qruplarında "həyəcan narahatlığının olmaması", "yüngül dərəcəli həyəcan narahatlığı", "mötədil həyəcan narahatlığı", "simptomatik həyəcan narahatlığı" və "həyəcan narahatlığının tam təzahürü" parametrləri üzrə əldə etdiyimiz göstəricilərin statistiki münasibət göstəriciləri χ^2=44,19 və p<0,0001 hesablanmışdır.

Şkalanın depressiya (HAM-D) komponenti üzrə həyata keçirdiyimiz sorğu mərhələsi zamanı doğuşdan sonra iltihabi ağırlaşma ilə müşayiət edilən zahılıq dövrü keçirən qadınlardan təşkil etdiyimiz əsas qrupda müvafiq komponentin qrup üzrə ortalama göstəricisi 15,9±0,35 bal müəyyən edilmişdir. Tədqiqat obyektləri arasında adı çəkilən şkalanın depresiya komponenti üzrə minimal göstərici əldə edəninki 9 bal, maksimal olanınkı isə 22 bal qeydə alınmışdır. Sağlam zahılıq dövrü keçirən pasiyentlərdə (n=50) həyata keçirdiyimiz anoloji sorğunun nəticələrinə görə onların ortalama bal göstəricisi əsas qrupun anoloji göstəricisi ilə müqayisədə bir qədər aşağı, 12,6±0,55 bal hesablanmışdır. Nəzarət qrupundakı pasiyentlər arasında ən aşağı göstərici nümayiş etdirən 5 bal, ən yüksək nümayiş etdirən isə 20 bal göstərmişdir. Pasiyent qrupları üzrə Hamilton şkalasının depressiya (HAM-D) komponenti üzrə həyata keçirdiyimiz sorğu mərhələsi zamanı əldə edilən ortalama göstəricilər arasındakı statistiki göstəricilər t=5,20 və p<0,0001.

Ağırlaşmalara məruz qalmış pasiyentlərdən ibarət əsas qrupda Hamilton şkalasının depressiya (HAM-D) komponenti üzrə sorğunun nəticələrinə əsasən depressiya halı qeydə alınmayan tədqiqat obyektləri olmasa da, sağlam zahılıq dövrü keçirən zahı qadınlardan ibarət nəzarət qrupundakı tədqiqat obyektlərinin 12,0±4,60%-ində bu hal qeydə alınmışdır. Müvafiq şkalanın depressiya komponenti (HAM-D) üzrə sorğu nəticəsində əsas qrupdakı iltihabi ağırlaşma keçirən zahı qadınların 24,0±4,27%-də yüngül dərəcəli depressiyanın olduğu qənaətinə gəlinmişdir. Buna baxmayaraq, sağlam zahılıq dövrü keçirən nəzarət qrupundakı pasiyentlər arasında bu göstərici yüksək, 46,0±7,05% təşkil etmişdir. Hamilton şkalasının depressiya (HAM-D) komponenti ilə sorğunun nəticələrinə əsasən orta dərəcəli depressiya vəziyyətində olan tədqiqat obyektlərinin müəyyən edildiyi mərhələsi zamanı doğuşdan sonra ağırlaşma keçirən zahı qadınlardan ibarət əsas qrupda belə pasiyentlər ümumi tədqiqat obyektlərinin 45,0±4,97% təşkil etdiyi ortaya çıxmışdır. Buna baxmayaraq, zahılıq dövrünü sağlam şəkildə keçirən nəzarət qrupundakı pasiyentlərin 36,0±6,79%-nin yüngül dərəcəli depresiyyadan əziyyət çəkdiyi sorğu ilə əsaslandırılmışdır ki, bu göstərici əsas qrupun anoloji göstəricisindən əhəmiyyətli dərəcədə aşağıdır. Şkalanın depressiya (HAM-D) komponenti üzrə tədqiqat qruplarında həyata keçirdiyimiz sorğuya əsaslanaraq gəldiyimiz nəticəyə əsasən doğuşdan sonra iltihabi ağırlaşma keçirən əsas qrupdakı tədqiqat obyektləri arasında 31,0±4,62% pasiyentlərdə ağır depressiya vəziyyəti mövcuddur. Yalnız nəzarət qrupunda qərarlaşan zahılıq dövründə iltihabi ağırlaşma keçirməyən zahı qadınların cəmi 6,0±3,36%-nin ağır depressiyadan əziyyət çəkdiyi qeydə alınmışdır. Müvafiq şkalanın depressiya (HAMD) komponenti üzrə həyata keçirdiyimiz sorğunun nəticələrinə görə nə doğuşdan sonra iltihabi baş verməyən zahı qadınlardan ibarət nəzarət qrupunda, nə də doğuşdan sonra iltihabi ağırlaşmalar nümayiş etdirən əsas qrupdakı tədqiqat obyektləri arasında çox ağır dərəcəli depressiya vəziyyəti aşkarlanan tədqiqat obeytkləri qeydə alınmamışdır. Qeyd etmək lazımdır ki, Hamilton şkalasının depressiya (HAM-D) komponenti pasiyent qruplarında "depressiya halının olmaması", "yüngül dərəcəli depresiya", "orta dərəcəli depressiya", "ağır dərəcəli depressiya" və "çox ağır

dərəcəli depressiya" parametrləri üzrə əldə etdiyimiz göstəricilərin statistiki münasibət göstəriciləri $\chi 2=26,98$ və $p<0,0001$ kimi müəyyən edilmişdir.

Doğuş prosesindən sonra iltihabi ağırlaşmaya mıəruz qalan zahı qadınlardan ibarət əsas qrupdakı pasiyentlər arasında Tutma və Depressiya Hallarının Hospital Şkalası (HADs) üzrə apardığımız sorğu nəticəsində 43% pasiyentlərə həyəcan vəziyyətinin subkliniki formasının olduğu müəyyən edilmişdir.Tədqiqatın qruplar üzrə pasiyentlərdə SF-36 sağlamlıq vəziyyətinin fiziki komponentinin "ağrıların intensivliyi" (BP) meyarı üzrə sorğu apardığımız mərhələsi zamanı doğuşdan sonra bu və ya digər formada iltihabi ağırlaşma nümayiş etdirməyən nəzarət qrupunda müvafiq meyar üzrə ortalama göstərici 81,9±0,71 olduğu halda, doğuşdan sonra ilihabi ağırlaşma ilə müşayiət edilən zahılıq dövrü keçirən əsas qrupda bu göstərici bir qədər aşağı 73,2±0,93 müəyyənləşdirilmişdir. Tədqiqatın qruplar üzrə SF-36 həyat keyfiyyəti sorğusunun psixi komponentinin "sosial funksionallıq" (SF) meyarı ilə göstəricilərin müəyyən edildiyi mərhələsində doğuş prosesindən sonra zahılıq dövründə iltihabi ağırlaşma keçirən əsasn qrupdakı pasiyentlərin müvafiq göstəriciləri ortalama 72,4±0,93 hesablandığı halda, doğuşdan sonra heç bir ağırlaşmasız sağlam zahılıq dövrü keçirən nəzarət qrupundakı pasiyentlərdə bu göstərici bir qədər yüksək, 82,3±1,56 müəyyən edilmişdir. Tədqiqat nəticəsində Hamilton şkalasının həyəcan narahatlığı (HAM-A) komponenti üzrə keçirdiyimiz sorğudan aldığımız nəticələrə əsaslanaraq, əsas qrupda cəmləşdirdiyimiz doğuşdan sonra iltihabi ağırlaşmaya məruz qalmış pasiyentlər arasında həyəcan narahatlığı olmayan tədqiqat obyektinə rast gəlinməsə də, nəzarət qrupunu təşkil edən zahılıq dövründə iltihabi ağırlaşma nümayiş etdirməyən pasiyentlərin 14,0±4,91%-ində həyəcan narahatlığı qeydə alınmamışdır.

Tədqiqatın planlı şəkildə Qeysəriyyə kəsiyi əməliyyatı icra etdiyimiz xəstələri üzrə əməliyyatından 6 həftə sonra pasiyentlərin müayinə məqsədilə gəlişləri zamanı həyata keçirdiyimiz Edinburq postnatal Depressiya Şkalasına (EPDS) görə doğuşdan sonrakı depressiyanın təzahürü dərəcəsinin müəyyənləşdirilməsi mərhələsi zamanı qrup üzrə ortalama göstərici 3,78±0,19 bal hesablanmışdır ki, bu da müvafiq qrup üzrə aldığımız ilk ortalama göstəricisindən olduqca aşağıdır.

ƏDƏBİYYAT

1. Иванова О.А., Квасова Л.К. Психологическая диагностика послеродовой депрессии у матерей преждевременно рожденных детей // Комплексные исследования детства, 2021, №2, с.138-144

2. Смелова В.Н., Палиева Н.В., Тарасова А.Ю. и др. Психологические факторы в возникновении послеродовых осложнений // Главврач Юга России. 2022, №4 (85), с.74-77

3. Yan H., Ding Y, Guo W. Mental health of pregnant and postpartum women during the coronavirus disease 2019 pandemic: a systematic review and meta-analysis // Front Psychol 2020 Nov 25;11:617001

4. Spénard E., Tordjman L., Marrié-Mas A. [et al.] Evaluation of a clinical protocol for the management of fever in labor among pregnant women at term: A quality-improvement study // International Journal of Gynecology & Obstetrics, 2023, 161, p.225-233

5. Rouse C.E., Eckert LO, Muñoz FM, et al. Global Alignment of Immunization Safety in Pregnancy (GAIA) Postpartum Endometritis, Infection following Incomplete or Complete Abortion Work Group. Postpartum endometritis and infection following incomplete or complete abortion: Case definition & guidelines for data collection, analysis, and presentation of maternal immunization safety data // Vaccine. 2019, 37(52):7585-7595

Современные методы оценки психоэмоционального состояния женщин с воспалительными осложнениями в послеродовом периоде

Ф.Р.Гаджиева

НИИ акушерства и гинекологии

Резюме: Целью исследования было оценить психоэмоциональное состояние женщин с воспалительными осложнениями менструального цикла. Для решения поставленных в ходе исследовательской работы задач в целом в исследование были включены 250 женщин в возрасте 17-45 лет, исходя из критериев включения и исключения нашего исследования, среди около 500 женщин, перенесших физиологические и абдоминальные роды. Всего в исследовании приняли участие 300 женщин, 50 человек, прошедших период гениальности в физиологических условиях. В результате проведенного нами обследования по Госпитальной шкале судорог и депрессий (HADs) среди основной группы женщин с воспалительными осложнениями после родов установлено, что у 43% пациенток имеется субклиническая форма тревоги. На этапе определения показателей психического компонента опросника качества жизни SF-36 по группам с критерием «социальная функциональность» (SF), при этом соответствующие показатели больных основной группы, перенесших воспалительные осложнения в течение послеродовой период после родового процесса в среднем рассчитывался как 72,4±0,93, после родов у пациенток контрольной группы, у которых был период здорового интеллекта без каких-либо осложнений, этот показатель определялся несколько выше - 82,3±1,56. В результате исследования, по результатам нашего опроса по тревожно-тревожному компоненту шкалы Гамильтона (HAM-A), хотя среди пациенток, подвергшихся воспалительным осложнениям после родов, испытуемых без тревоги не было, которую мы сосредоточили в основной группе, у пациентов, у которых не наблюдались воспалительные осложнения в период интеллекта, составивших контрольную группу, 14,0±4,91% не имели тревожного расстройства.

Ключевые слова: женщины пожилого возраста, воспалительные осложнения, качество жизни, опросник, шкала Гамильтона, SF-36.

Modern methods for assessing the psychoemotional state of women with inflammatory complications in the postpartum period

F.R. Hajiyeva

Research Institute of Obstetrics and Gynecology

Summary: The purpose of the study was to assess the psycho-emotional state of women with inflammatory complications of the menstrual cycle. To solve the problems posed during the research work, in general, 250 women aged 17-45 years were included in the study, based on the inclusion and exclusion criteria of our study, among about 500 women who had undergone physiological and abdominal childbirth. A total of 300 women took part in the study, 50 people who went through a period of genius under physiological conditions. As a result of our examination using the Hospital Convulsions and Depression Scale (HADs) among the main group of women with inflammatory complications after childbirth, it was found that 43% of patients have a subclinical form of anxiety. At the stage of determining the indicators of the mental component of the SF-36 quality of life questionnaire in groups with the criterion “social functionality” (SF), while

the corresponding indicators of patients in the main group who suffered inflammatory complications during the postpartum period after the birth process were calculated on average as 72.4± 0.93, after childbirth in patients of the control group who had a period of healthy intelligence without any complications, this indicator was determined to be slightly higher - 82.3 ± 1.56. As a result of the study, according to the results of our survey on the anxiety-anxious component of the Hamilton scale (HAM-A), although among the patients who suffered inflammatory complications after childbirth, there were no subjects without anxiety, which we concentrated in the main group, in patients who did not inflammatory complications were observed during the period of intelligence; in the control group, 14.0±4.91% did not have an anxiety disorder.

Key words: elderly women, inflammatory complications, quality of life, questionnaire, Hamilton scale, SF-36.

Daxil olub: 11.10.2023